# Vətən ürəkdə, vətən nəfəsdə, dildə...

Dünya Azərbaycanlılarının Həmrəylik Gününün dekabrın 31-də qeyd olunması təsadüfi deyildir. Ötən illərin 80-ci illərinin sonunda ittifaq məkanında gedən proseslər Azərbaycanda milli-oyanış hərəkatının geniş vüsət almasına gətirib çıxardı. Ermənistanın Azərbaycana ərazi iddiası, ermənilərin seperatçılıq hərəkatı, azərbaycanlıların öz yurdlarından qovulması "Meydan hərəkatı"nın əsasını qoydu. Moskvanın və yerli



hakimiyyət orqanlarının yarıtmaz siyasəti nəticəsində meydana çıxan xalq bu problemlərin həll edilməsini öz üzərinə götürərək 1988-ci ilin 17 noyabrında kütləvi etiraz aksiyalarına başladı. Belə bir vaxtda azərbaycanlıların Vətən naminə həmrəyliyinə, birliyinə ehtiyac yarandı. Bu hadisələrin fonunda 31 Dekabr - Həmrəylik Günü təsdiqləndi.

1991-ci ilin dekabrında Naxçıvan Muxtar Respublikasında Heydər Əliyevin təşəbbüsü ilə 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan edilib, sonra isə Azərbaycan Respublikası Ali Soveti tərəfindən rəsmi qeyd olunması qərara alınıb.

Burada əsas məqsəd dünya azərbaycanlılarını birləşdirmək, onların soydaşlarımızla, diaspor təşkilatları ilə əlaqələrini gücləndirmək, milli kimliyi qorumaq, Azərbaycan həqiqətlərini ictimaiyyətə çatdırmaq və Vətənə bağlılığı möhkəmləndirməkdir.

1991-ci ildə müstəqillik əldə edildikdən sonra Azərbaycan vətəndaşlarının xarici ölkələrə daha asan səyahət etmək imkanı ortaya çıxdı. Bu dövrdə Türkiyə həm iş adamları, həm də akademik sahədə çalışanlar üçün ən yaxşı seçimə çevrildi və bu günə qədər müxtəlif dövrlərdə və illərdə yüzlərlə sənətçilər və elm adamları Türkiyənin dövlət və özəl universitetlərində çalışmış və bəziləri hələ də çalışmaqdadır.

Eyni dili, dini, mənəvi dəyərləri, adət-ənənələri bölüşən Azərbaycan və Türk xalqları uzun tarixi dövrdə bir-birini zənginləşdirməklə yanaşı, bir-birlərinə təsir göstərmiş, həm də daha da yaxınlaşmışlar və bu xalqlar arasındakı dostluq və qardaşlıq tarix boyu möhkəmlənmişdir.

Bu məqalədə Türkiyədə yaşayan bir həmyerlimizin - Vəndamdan Türkiyənin Kocaeli vilayətinə gedən elm adamının həyat və fəaliyyəti ilə oxucularımızı tanış etmək istəyirik.

Zahir Seyidməmmədov 1958-ci ildə Qəbələ rayonunun Vəndam kəndində müəllim ailəsində anadan olmuşdur. 1966 - 1974-cü illərdə Vəndam 2 saylı 8 illik məktəbində təhsil alan Z. Seyidməmmədov, orta təhsilini 1974 - 1976-cı illərdə Vəndam 1 saylı orta məktəbində davam etdirmişdir. Orta təhsilini bitirdikdən sonra həmin ildə Bakı Dövlət Universitetinin mexanika-riyaziyyat fakultəsinə daxil olmuş və 1981-ci ildə məzun olmuşdur. 1981 - 1985-ci illər arasında Azərbaycan Mərkəzi Statistika İdarəsinin Hesablama Mərkəzində riyaziyyatçı-mühəndis olarak işləmiş, 1986-cı ildə Azərbaycan Elmlər Akademiyasının Kibernetika İnstitutunda aspiranturaya daxil olmuş, 1990-cı ildə sərt cisimlərin deformasiyası problemlerinin riyazi yöntəmlər ilə həll edilməsi haqqında namizədlik dissertasiyasını müdafiə etmiş və fizika-riyaziyyat elmləri namizədi adını almışdır.

1991 - 1994-cü illər arasında Azərbaycan Təhsil Nazirliyi və Azərbaycan İqtisad Universiteti nəzdindəki "Təhsilin planlaşdırılması və Proqnozlaşdırılması" laboratoriyasında baş elmi işçi olarak



çalışmışdır.

1994-cü ildə Türkiyədəki Kocaeli Universitetindən dəvət alan Zahir Seyidməmmədov 1994-2007-ci illər arasında bu universitetdə Dosent olaraq işləmiş, 2007-ci ildən bu günə kimi Professor olaraq çalışmağa davam eməkdədir. Zahir çalışdığı illər ərzində 12 aspirantura tələbəsinin elmi rəhbəri olmuş, tanınmış elmi jurnallarda 40-dan artıq elmi məqalə yazmış, çox sayda beynəlxalq elmi konfransda məruzə ilə çıxış etmişdir.

1989-cu ilde riyaziyyat müəlliməsi olan Məhluqə xanım ilə evlənmiş, bir oğlan və bir qız olmaqla iki övladları vardır. 1994-cü ilin başlanğıcında Türkiyəyə getdiyində 2 və 3 yaşlarında olan uşaqlar ilə birlikdə kiçik bir ailə olaraq həyatlarını orada davam etdirmişlər. Həyat yoldaşı Məhluqə Seyidməmmədova 1999-cu ildən bu yana Kocaeli Universiteti - Kocaeli Məslək Yüksək Okulunda (riyaziyyat müəllimәsi olaraq çalışmaqdadır. Zahir və Məhluqə Seyidməmmədovlar yaşadıqları məkanda, eləcə də Türkiyənin müxtəlif bölgələrində azərbaycançılıq ideologiyasının təbliğatçılarıdır. Yeniyetmə və gənc nəslin təlim-tərbiyəsi sahəsində çalışan bu cütlük xalqımızın tarixini və bu tarixdə yaşanılan hər bir gerçəkliyi onların qarşısında danışır , dərs və mühazirələrində məhz Azərbaycan həqiqətlərini əsas mövzu seçirlər. Validеyinlər bir ziyalı ailəsində uşaqlığından milliyətçilik ruhu ilə böyüdüyündən övladlarının da bu ruhda böyüməleri üçün çalışmışlar. Azərbaycan Texnik Universitetində təhsil alan oğulları Azərbaycanlı qız ilə evlənmiş və köklərindən heç ayrılmamışdır. Türk dünyasının böyük sərkərdələrinin adlarını yaşadan Alparaslan və Timurxan adlı iki nəvələri vardır.

İnsanın yarandığı ilk dövrlərin adət-ənənələri, mərasimləri, inamları, andları, duaları öz izlərini bu və ya digər dərəcədə eyni və ya çox az irqlə mədəni irsimizdə bu günədək yaşamaqdadır. Bu problemin öyrənilməsində xalqımızın inkişaf tarixini, təsərrüfat məişətini, onun maddi və mənəvi mədəniyyətini, ailə məişətini, adət və ənənələrini özündə əks etdirən klassiklərin əsərləri, onların ictimai fəaliyyəti mühüm rol oynayır və qiymətli etnoqrafik mənbə sayılır. Azərbaycan xalqının maddi və mənəvi mədəniyyətinin öyrənilməsində əsərlərini milli ruhda yazan şair və yazıçılarımızın xaricdə, özəlliklə Türkiyədə də yaşayıb fəaliyyət göstərməsi sevindirici haldır".

Məmməd Səid Ordubadinin yazdığı kimi : "Vətəni sevmək kifayət deyil, onu layiqincə tanımaq və tanıtmaq lazımdır. Xalqı sevmək azdır. Onun əxlaq və adətlərini layiqincə öyrənmək, yaşatmaq və yaymaq gərəkir. "

Dünyamızın dəyişməsi, xalqların bir-biri ilə inteqrasiyası bir sıra yeni adətlərin formalaşmasına təsir göstərsə də turk dominantlığı Sasani dövlətində olduğu kimi Səfəvilər dövləti dağıldıqdan sonra Osmanlı dövründə də türk dili və adətlərinin yaşayıb, inkişaf etdiyi görülməkdədir. Adət və ənənələr bəşəriyyətin təkamül prosesini özündə əks etdirir, bütün dövrlərdə cəmiyyətin sosial-mənəvi və mədəni tərəqqisinin göstəricilərindən biri kimi çıxış edir.

Zahir: "Burada ailəvi olaraq tanış olduğumuz dostlarımız ve ailələri ilə hər görüşümüzdə, Azərbaycan adət və ənənələrindən, musiqi və ədəbiyyatından, şairlərdən, yazıcılarımızın əsərlərindən, toy adətlərindən söhbətlərimizin çox gözəl nəticələrinin olduğunu görürük. Azərbaycandan hər gəldiyimizdə buradaki dostlarımıza klassik şairlərimizin şeir kitablarını, mətbəximiz ilə ilgili kitablar, Azərbaycan sənətçilərinin əsərlərinin kaset və ya disklərini, dostlarımızın nəvələri üçün Azərbaycan nağılları kitablarını gətirirk. Universitetdəki dostlarımızın ofislərində Nəsiminin, Səməd Vurğunun şeirlərinin asıldığını görmək çox xoşumuza gəlir. Hətta tələbələrimizin Azərbaycan mahnılarını çox gözəl oxumaları da bizi qürurlandırır. Qonşularıma Azərbaycandan hədiyyə olaraq gətirdiyimiz maqqaşlarla şəkərbura bişirmələri də çox gözəl bir şey olduğunu düşünürük" - cümlələrini söylədi.

Son olaraq: "Azərbaycan mənim vətənimdir, orada doğulub böyüdüm, təhsil aldım, ömrümün yarısından çoxunu isə Türkiyədə yaşadım, düzen qurdum. Hər ikisini eyni istəklə sevirəm. Türkiyədə özümüzü Azərbaycanda kimi hiss edirəm, bura da mənin vətənimdir" dedi.

Azərbaycanın - mənim ana Vətənimin tarixini, mədəni, sosial- iqtisadi inkişafını, siyasi fəaliyyətini, ordumuzun yenilməzliyini, xalqımızın milli adət- ənənələrinin təbliği dünyanın bütün məkanlarında yaşayan azərbaycanlıların müqəddəs borcudur. Azərbaycan diasporası öz fəaliyyətini daima artırmalı, milli - mənəviyyatının gücü ilə harada yaşamasından asılı olmayaraq xalqına xidmət etməlidir. Bu hər kəsin Azərbaycanlılıq borcudur.

**BIBIXANIM.**

# Qəzetlər də sənədli tarixdir

**Mətbu orqanları haqqında**

Qəzetlər və mətbu orqanları (qəzet, jurnal, informasiya agentlikləri, internet mediası) ictimai rəyi formalaşdıran, məlumat yayan, təbliğat aparan və inkişaf etdirmək xüsusiyyətinə malik dövri nəşrlərdir.

Bunlar sosial, siyasi və elmi həyatın əsas vasitəçiləridir. Azərbaycan mətbuatında ənənəvi və rəqəmsal formalar paralel mövcuddur.

Qəzetlər və mətbu orqanlarının əsas xüsusiyyətləri kütləvi informasiya vasitəsi, təbliğat və tənqiddir. Əhatə dairəsi isə qəzetlər, jurnallar, informasiya agentlikləri, radio, televiziya, saytlar və sosial media platformalarıdır.

Formatları isə «ənənəvi» (çap), media və «yeni» (rəqəmsal) media növləridir.

**Sosial media və qəzetlərin fərqi**

Qəzetlər çap, gec təyinatlı və məhdud əhatəlidir, sosial media isə anında paylanılır, qlobal interaktivdir. Qəzetlər bir istiqamətli məlumat ötürür, sosial media isə qarşılıqlı dialoq və paylaşımı təmin edir. Qəzetlərdə çap prosesi onun yayımlanmasını gecikdirə bilər, ancaq məlumat dərc olunanda daha peşəkar və redaktə olunmuş olur. Həmçinin qəzetlər informasiyaların doğruluğuna üstünlük verir. Sosial media isə sürətli olmasına rəğmən paylaşılan xəbərlər çox zaman yanlış olur və hər addımda burada sensasiya xarakterli məlumatlara rast gəlinir.

Qəzetin əhatə dairəsi onun abunəçiləri ilə ölçülür, həmçinin düzgün informasiya sevənlərin qəzetləri əldə etməsi ilə yayımlanır.

Sosial mediada real vaxtda məlumat paylaşılır, sürətli şəkildə dünyaya belə paylaşıla bilir. Qəzetlər gec, sosial media anında yayılır. Qəzetlər oxunur, sosial media oxunur, paylaşılır, müzakirə edilir.

Qəzetlər məhdud auditoriya üçün olsa da daha ciddidir.

Buradan belə nəticə çıxarmaq olar ki, qəzetlər sabahın tarixidir. Və burada təhrifçiliklər demək olar ki, (hazırkı dövrün nəşr olunan qəzetləri) yox dərəcəsindədir.

Oxucu görəsən dəqiq məlumatları xoşlar, ya təhrifçiliyi? Əlbəttə əsil ziyalı həm dəqiqliyi sevər, həm də operativliyi. Ancaq doğruluq, reallıq tarix boyu bəşəriyyətin həqiqət təcəssümüdür. Yanlışlıq, sensasionçuluq isə anında çatdırılan informasiya olsa da, bu gün üçündür, sabah üçün belə təbliğatların əksəriyyəti əhəmiyyətsizdir. Ona görə də hər bir təbliğatçı mətbu orqanlarının hər sahəsində məsuliyyət hissinə diqqət etməlidir.

Bir sözlə, qəzetçilik unudulmamalı, daima oxunmalı, tarixi yaddaş kimi saxlanılmalıdır.

**Hazırda qəzet oxunurmu?**

Bəzən qəzet oxumayıb bütün məlumatı sosial səhifələrdən gözləyənlərlə rastlaşırıq. Belə «bəzilər» qəzet oxumağa «səbr» tapa bilmirlər. Götürək elə 1933-cü ildən fəaliyyət göstərən, bəzən çətinliklərlə üzləşsə də nəşr olunan rayon qəzetini. Bu qəzet də bir tarixi sənəd kimi axtarılır. İllər əvvəl çap olunmuş nömrələrinə istinad edilir.

Qəzetdə ölkə xəbərləri, rayonumuzun iqtisadi-siyasi, tarixi, mədəni, sosial-inkişaf xətti, kənd təsərrüfatı və sənaye xəbərləri, milli-mənəvi zənginlik, vətənpərvərlik mövzusunda zarisovka, reportaj, oçerklər dərc olunur. Son beş ildə II Vətən Müharibəsi şəhidləri və qaziləri, döyüşçülər, onların ailələri, onlara göstərilən qayğı və yanaşmalar haqda, rayonumuzun sosial-iqtisadi həyatı və s. mövzularda materiallar ayrı-ayrı səhifələrdə özünə yer alır. Əsil ziyalı, vətənini, xalqını, doğulduğu və yaşadığı məkanı sevən hər kəs qəzet oxumağı xoşlar, yalnız sosial mediya oxucusu olmaqla kifayətlənməz.

Qəzetimizin son beş ildə elə bir nömrəsi yoxdur ki, orada ayrı-ayrı şəhidlər və qazilər haqqında maraqlı yazılar verilməsin. Vətənpərvər olan hər kəs bu mövzunu bütün nömrələrdə izləyir.

Bəzən bizə müraciətlər edilir: «Sizin qəzeti haradan əldə etmək olar»? Bax, sözüm belə ziyalı və vətənpərvər insanlaradır - «Qəbələ səsi»nin bir ünvanı var - qəzet redaksiyası.

**Qəzetin tarixi sənəd olmasına adi bir fakt**

Bu günlərdə sosial medianın facebook səhifəsində «Qəbələlilər və Qəbələsevərlər» qrupunda Elbrus Mikayılovun imzası ilə çox maraqlı bir yazı ilə rastlaşdım. Həmin yazının başlığı belə idi: «Qəbələ rayonundan olan Sosialist Əməyi Qəhrəmanları: Mənbə: «Bolşevik mübarizi» qəzeti, 21, 28 iyul 1950-ci il (şəxsi arxiv).

Yazının hələ başlığı diqqətimi cəlb etdi və maraqla oxudum. Bu tarixi bir sənəd idi. Axı bu məlumatı nəinki gənc nəsil, hətta o biri nəslin nümayəndələrinin də əksəriyyəti bilə bilməzdi. Bu yalnız mütaliə etməyi sevənlərin, yaşlı nəslin ziyalı təbəqələrinin bəzilərinin yaddaşında qala bilər. Müəllifi tanımasam da ona çox böyük hörmətim var. Deməli qəzet həmişə oxunulub. Oxunulub ki, şəxsi arxivində belə saxlanılıb.

**Bəs bu gün?..**

Qəzetimizin bu günkü vəziyyəti görəsən maraqlı deyilmi? Sosial media nə qədər sürətli olsa da, qlobal olsa da qəzet sabahkı tarix, nəsillərə lazım olan bir sənəddir. Həm də yaşadığımız bir obanın, şəhərin, eləcə də bir rayonun həyat tərzini, yaşamını, varlığını əks etdirən dəyərli bir vasitədir. Hamılıqla onu qloballaşdıra, yayımı sürətləndirə bilərik. Bu isə oxucu kütləsindən asılıdır. Bu gün onu yaşatmasaq, sabahkı gün üçün Qəbələ tariximiz bir çox tarixi həqiqətləri itirə bilər. Canlı, faktiki sənəd olan qəzetimizi hamılıqla yaşadaq. Növbəti il üçün abunə kompaniyasını zənginləşdirək.

**Bibixanım İSAYEVA.**

## İTMİŞDİR

Qəbələ rayon Böyük Pirəli kənd sakini **Eyvazov Aləddin Nurəddin oğluna** məxsus Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qəbələ rayon şöbəsi tərəfindən verilmiş **hərbi bileti itdiyi üçün** etibarsız sayılır.

Qəbələ rayon sakini **Baxışov Səyyar Nəsrəddin oğluna** məxsus **"Şəhid ailəsi üzvünün vəsiqəsi" itdiyi üçün** etibarsız sayılır.

Oğuz rayon sakini **Kazımov Yasin Kazım oğluna** məxsus nəqliyyat vasitəsinin **qeydiyyat şəhadətnaməsi, sürücülük vəsiqəsi və etibarnaməsi**